# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№040** **26 aprel 2022-ci il**

**Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli, 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Qobustan Rayon İcra Hakimiyyətinin 2022-ci il üçün İş planının təsdiq edilməsi haqqında**

Dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 6.8-ci bəndinə əsaslanaraq

**Qərara Alıram:**

1."Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nı çərçivəsində görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Qobustan Rayonu İcra Hakimiyyəti başçısı Aparatının 2022-ci il üçün İş Planı təsdiq edilsin.

2.Rayon İcra Hakimiyyəti başçısının müavinlərinə və Aparatın şöbə müdirlərinə tapşırılsın ki, İş Planında nəzərdə tutulmuş işlərin icrasını təmin etsinlər və ilin yekunu üzrə görülmüş işlər barədə məlumatları hər il dekabrın 20-dək Aparatın İnformasiya təminatı və təhlil sektoruna illik hesabat təqdim etsinlər (İş planı əlavə edilir)

3.Rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Xanalıyevə tapşırılsın ki, Aparatın şöbələri tərəfindən təqdim olunmuş məlumatlar əsasında illik hesabatı hazırlayıb hər il dekabrın 30-dək

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin.

4.Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**